# CAVAD HEYƏTİN ƏSƏRLƏRİNDƏ DİNİ MAARİFÇİLİK MƏSƏLƏLƏRİ

*(Əvvəli ötən sayımızda)*

O, fərqli dinlərdə olduqları üçün türklərin keçmişdə vahid bir cəmiyyət halında birləşmələrinin çətin olduğunu, ancaq islam sayəsində vahid bir cəmiyyət və qüvvətli dövlətlər qura bildiklərini yazırdı. Türklər islamı onların ruhuna uyğun olduğu üçün qəbul etmiş, müsəlman olduqdan sonra islam mədəniyyətini mənimsəmiş və inkişaf etdirmişdilər. Onlar Səlcuqlu və Osmanlı dövlətləri vasitəsilə cihad və fəthlər edərək islam dinini Anadoluda və Balkanlarda yaymış, xristianların xaç savaşlarına, hücumlarına qarşı islamı və müsəlmanları qorumuşdular.

Mütəfəkkir səlcuqlular haqqında məlumat verərək yazırdı ki, onlar əsasən hənəfi olsalar da, Nizamülmülk kimi şafii vəzirlərdən istifadə edir, sultanların hüzurunda dini-fəlsəfi məclislər təşkil edir, təəssübkeşlik etmirdilər. İslam dünyasının böyük fiqh, kəlam, təfsir və hədisçilərin çoxu bu dövrdə yetişmişdir.

Cavad Heyət yazır ki, Sultan Alp Arslan (11-ci əsr) zamanında dünyada bəlkə də ilk universitetlərdən biri sayılan Bağdaddakı Nizamiyyə nizamiyyəsi və sonralar onun nümunəsində başqa ali səviyyəli mədrəsələr qurulmuş, dini fənlərlə yanaşı elmi mövzular da ciddi tədqiq və tədris edilmişdir. Nizamiyyə mədrəsəsində 600 mindən çox kitab var idi.

C.Heyət səlcuqlular dövründə sufizmin inkişaf etdiyini, eyni zamanda kəlamçı da olan sufi Qəzalinin, Əbdülqadir Gilaninin, Şeyx Nəsrəddin Kübranın, İbn Ərəbinin tələbəsi Sədrəddin Konyəvinin, şair və sufi Cəlaləddin Mövləvinin haqqında məlumat verir. C.Heyətə görə türk sufiliyi öz əxlaqiliyi, sadəliyi ilə seçilirdi. Həmçinin alplıq və fütuhat, cihad və qazilik düşüncəsi ilə də bağlı idi.

Əhməd Yəsəvi haqqında yazan Cavad Heyət göstərirdi ki, türk təsəvvüf şeirinin qurucusu olan Yəsəvi Şeyx Yusif Həmədaninin müridi olmuş, Divani-Hikmətində islam dinini təsəvvüflə birləşdirərək, onun türklər arasında yayılmasına yardım etmişdir. Yəsəvinin dini-əxlaqi şeirlərində ilahi eşq əqidə əsasları ilə birlikdə tərənnüm edilmiş, sadə dildə yazıldığı üçün xalq arasında rahat yayılmış, saz və rəqlələrlə oxunduğu üçün xalqın ruhuna işləmişdi. Təsəvvüfün islam əqidəsi ilə qaynaşması dini təəssübü azaltmış, xanəgahlarda qadınlı kişili təriqət mərasimləri birlikdə icra edilmişdi.

C.Heyət göstərir ki, İbn Ərəbi kafirlərə qarşı silahlı müdafiəni təbliğ etsə də, Mövlana sülh içində yaşamağı, işğalçı monqollarla yaxşı keçinməyi tövsiyə edirdi. C.Heyət Ə.Yəsəvidən sonra ən böyük sufi şairin Yunis Əmrə olduğunu, onun sadə xalq dilində yazdığını göstərir. Yunis Əmrə farsca yazan Mövlanadan fərqli olar sadə türk dilində yazaraq dərin irfani mövzuları xalqın başa düşə biləcəyi şəkildə bəyan etmiş, Anadolu təsəvvüf şerirində yeni bir dövr açmışdır.

Mütəfəkkir batiniliyə əsaslanan babai, bektaşi, hürufi təriqətləri haqqında məlumat verir. Babailiyin qurucusu Baba İshaqın öz tərəfdarları tərəfindən peyğəmbər kimi sevildiyini, hökumətə qarşı üsyan etdiklərini, lakin sonda qətl edildiklərini yazırdı. C.Heyət bektaşiliyin Yəsəvilik təriqəti əsasında yarandığını və bektaşiliyin türk hərbçilər arasında rəğbət gördüyünü qeyd edirdi. O, bektaşiliyin qurucusu Hacı Bektaş haqqında da məlumat verir. Onun Baba İshaqın xəlifəsi olduğunu və şiəliyə meyilli olduğunu bildirir.

Cavad Heyət Qaraqoyunlu və Ağaqoyunlu dövlətləri haqqında da maraqlı fikirlər ortaya qoymuşdur. O, Cahanşahın Həqiqi təxəllüsü ilə şeirlər yazdığını, Təbrizdə Göy məscidi tikdirdiyini göstərir və onun sufiyanə şeirlərindən nümunələr verir:

Zahida, gəl səcdə qıl şol surəti-rəhmanə sən,
Səcdeyi-həqqi sənə çün əhli-mənə görsədür.

O, "Çün Həqiqi, hər ki Mənsur oldu dər meydani eşq" deyərək ənəlhəqq dediyi üçün nadan ruhanilər tərəfindən qətl edilən Mənsur Həllacı vəsf edirdi.



Cavad Heyət Nəsimi haqqında məlumat verərək onun təbrizli hürufi Nəiminin müridi olduğunu yazır və göstərir ki, "hürufi təriqəti bütün kainatı zati-əzəlinin mücəssəməsi bilir və hərflərə əsrarəngiz məna verir, ehtiram edirdilər". Hürufilər Quranı batini şəkildə təfsir edib Quranın da kainat kimi Allahın "kün - ol" əmrindən sonra yarandığı üçün hərflərin hər şeydən öncə yaradıldığını və varlığın hərflərdən meydana gəldiyini iddia edirdilər. Onlar varlığı ilahiləşdirir, hətta varlıqda ilahinin özünü görürdülər. Nəsimi insanı - "məzhəri-cəmali-həq", Həqqin camalının təzahürü adlandırır, varlıqda ikiliyi yox, vəhdəti görür, "sənin üzünün müshəfini Quran oxuyuruq" deyərək kamil insanda ilahi kəlamın təcəllisini ifadə edirdi.

Nəsimi Nəiminin qətlindən sonra Anadoluya getmiş, fəlsəfi qəzəllərlə hürufiliyi təbliğ etmiş, Hələbdə müftinin fitvası, sultanın əmrilə öldürülmüşdür. O, öldürülsə də şeirləri ilə yaşamış, Cavad Heyətin dediyi kimi Anadoluda, Orta Asiyada, sufi və s. bəktaşı təriqətlərində müqəddəs şair kimi yad edilmişdir.

Cavad Heyət ərzurumlu ruhani, qazi Mustafa Zəririn azəri türkcəsində hz. Məhəmməd haqqında ərəbcədən türkcəyə tərcümə etdiyi İbn İshaqın Sirətün-nəbi əsəri və Quran hekayələri əsasında yazılmış Qisseyi-Yusif əsəri haqqında da məlumat verir.

Cavad Heyət Ağaoyunlu Uzun Həsənin öz sarayında alimləri himayə etdiyini, elmi məclislər qurduğunu, Quranı türk dilinə tərcümə etdirib, öz hüzurunda oxutdurduğunu yazır. Uzun Həsənə görə Quranı ərəbcə olmaqla yanaşı türkcə oxumaq və qulaq asmaq böyük savabdır. Uzun Həsənin Qanunnaməsi uzun müddət Səfəvi və Osmanlılar tərəfindən də hüquqi bir qaynaq kimi istisadə edilmişdir.

Səfəvilər haqqında məlumat verən Cavad Heyət bir qismi türkcə yazılmış "Qara məcmuə" əsərinin müəllifi Şeyx Səfiəddinin Zahid Gilaninin müridi olduğunu, təriqət şeyxi kimi xalq tərəfindən sevildiyini, Cüneyd zamanında təriqətin şiəliyi yaymağa başladığını, onun oğlu Heydərin xristian çərkəzlərlə cihad etdiyini, Şah İsmayılın da bu dini ənənəni davam etdirərək İranda 12 imam adına xütbə oxutduraraq şiə dövlətini qurduğunu yazır. Lakin Xətai həm də sufi bir şairdir və əsərlərində vəhdəti-vücudu təbliğ edir, varlıqda Həqdən başqa vücud olmadığını, bu mərhələyə çatmaq üçün həqiqi bir mürşidə və əxlaqi saflaşmağa ehtiyac olduğunu yazırdı. Xətai ənəlhəq deyib Nəsimi və Nəimiyə ehtiram bəsləsə də, o, hürufi deyildi, lakin sufiliyi, ilahi eşqi təbliğ etmişdir. Qızılbaş, ələvi və bektaşi ədəbiyyatında Xətai mürşid kimi qəbul edilmişdir. Hətta Sayat-Nova kimi xristian aşıqlar da Xətaini özlərinə ilahi rəhbər kimi qəbul edirdilər.

Səfəvi dövlətinin qurulması Anadolu şiələrində böyük həyəcan yaratmışdı və onlar bir-birlərinə şah deyərək salam verirdilər və şahı görmək üçün İrana gəlirdilər. Cavad Heyət göstərir ki, Xətainin türkcə Divanı 12 imam və hz. Əlini vəsf edən böyük külliyyatı ehtiva edir. Ona görə rəsmi olaraq şiə məzhəbinin qəbul edilməsi İranda vəhdəti təmin etdi və İran istiqlalını qorudu. Cavad Heyət göstərir ki, türklər İranda min ilə yaxın hakim oldular və İranı qorumaq üçün qonşu türklərlə də savaşıb canlarını fəda etdilər. İran ədəbiyyatı və islam maarifinin inkişafına var qüvvələri ilə çalışdılar.

Cavad Heyət göstərir ki, Azərbaycanda mərsiyə və növhə ədəbiyyatı janrı Şah İsmayıl zamanından etibarən başlamışdır. Xətai və Füzuli Kərbəla faciəsini öz şeirlərində bəyan etmişdilər.

Cavad Heyət iraqlı M.Füzulinin müfti oğlu olduğunu, saray şairi olmaq istəmədiyini onun dili ilə belə təqdim edirdi:

Nəyə gərək Keyü Kəsraya təzim etmək
Nəyə gərək fəğfur və xaqandan minnət çəkmək
Qəlbində yalnız hikmətlə tanrını saxla
Səni Kəbə əmini etmişlər, onu bütxanə eyləmə.

Burada Quranın - tanrıdan başqasına səcdə etmə ayəsinə bir işarə vardır.

Cavad Heyətə görə "Hədiqətüs-süəda" əsərində (Hüseyn Vaizin Rövzətüş-şühəda nümunəsində, lakin ondan üstün) Kərbəla faciəsini nəzmə çəkən Füzuli şiə olsa da, Nəsiminin təsirindədir və vəhdəti-vücud fəlsəfəsinə inanmışdır. Onun Leyli və Məcnun əsəri ilahi eşqin tərənnümünə ithaf edilmişdir. Füzulidəki eşq ilahi eşqdir və insanı əbədiyyətə qovuşdurur. O, sadəcə şair olmamış, dövrünün dini və fəlsəfi elmlərində, tibb sahəsində də ustad olmuşdur. Füzuliyə görə şairlik ilahi bir vergidir, lakin onu elm ilə bəzəmək, kamilləşdirmək lazımdır. Zira elmsiz şeir ruhsuz cism kimidir. Dindar bir şair olan Füzulinin Su qəsidəsi peyğəmbərə həsr olunmuşdur. Cavad Heyət Füzulinin Mətləül-etiqad əsərindən də bəhs edir və bu əsərdə Füzulinin dini etiqadının aydınlandığını qeyd edir. Lakin qeyd edək ki, bu əsərdə Füzuli yunan fəlsəfəsi, sünni və şiə əqidəsi, sufizm haqqında məlumat versə də öz məzhəbini xüsusi qeyd etməmişdir.

Cavad Heryət göstərir ki, Güney Azərbaycan'-da 19. əsrdə daha çox mərsiyə ədəbiyyatı inkişaf etmişdir. XIX əsrdə Axund Molla Hüseyn Dəxil Marağayi əhli-beyt və Kərbəla faciəsi haqqında 7 cilddə türkcə Divan yazmış, bu mövzuda Əbülqasim Nəbati, dərbəndli Məmmədtağı Qumri (Kitabi-kənzül-məsaibi-Qumri), Rəncur xanım, təbrizli Əbülhəsən Raci (Divan), təbrizli Məhəmmədəmin Dilsuz, təbrizli Hacı Rza Sərraf və s. də əsərlər yazmışlar.

***(Davamı var)***



***Əli FƏRHADOV,***
***t.ü.f.d., dosent,***
***Milli Azərbaycan Tarixi Muzeyinin aparıcı elmi işçisi, Bakı,***
***ali_farhadov@yahoo.com***